

**Şikar Həbulla oğlu Əhmədov**
**Əkinçilik ET İnstitutunun ümumi işlər üzrə direktor müavini**

Şikar Həbulla oğlu Əhmədov 1958-ci il aprelin 23-də Qərbi Azərbaycan, Zəngəzur mahalı, Meqri rayonunun Nüvədi kəndində fəhlə ailəsində anadan olmuşdur.

1985-ci ildə S.Ağamalı oğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Kənd Təsərrüfatının mexanikləşdirilməsi fakültəsini bitirmişdir. 1985-ci ildə Azərbaycan Dövlət Maşın Stansiyasında mühəndis, böyük mühəndis, traktor və kənd təsərrüfatı maşınlarının sınağı şöbəsinin müdiri, 2008-ci ildən Əkinçilik Elmi-Tədqiqat İnstitutunun "Davamlı əkinçilik və bitki diversifikasiyası" şöbəsində böyük elmi işçi vəzifələrində calışmışdır.

Hal-hazırda Əkinçilik Elmi-Tədqiqat İnstitutunun ümumi işlər üzrə direktor müavinidir.

2008-2013-cü illərdə "Davamlı əkinçilik və bitki diversifikasiyası şöbəsinində "Gəncə-Qazax bölgəsində yeni intensiv payızlıq buğda sortlarının becərilməsində əsas amillərin optimallaşdırılması" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə bitirmiş və 3103.07 – "Bitkiçilik" ixtisası üzrə aqrar elmləri fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Respublika daxilində və xaricdə müxtəlif elmi nəzəri jurnallarda dərc olunmuş 52 elmi əsərin və bir monoqrafiyanın müəllifidir. Beynəlxalq elmi-praktiki konfranslarda iştirak etmişdir.

Ş.H.Əhmədov Rusiya Respublikasında "Müasir elm və təhsilin uğurları"elm jurnalında redaksiya heyətinin üzvidir.

Elmi-tədqiqat işlərinin aparılmasında, bölgələrdə tətbiq olunmasında iştirak etmiş və fermerlərə öz tövsiyələrini vermişdir.

O, “Yeni intensiv payızlıq buğda sortlarının becərmə üsullarından asılı olaraq məhsuldarlığın artırılması” mövzusunda nümayiş əkininə rəhbərlik etmiş və yeni buğda sortlarının fermer təsərrüfatlarında tətbiq olunması haqqında müşavirələr aparmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Əlaqə:
*Tel: 055 255 86 92 ; 553 6858*
*Email: shikar.ahmedov.58@mail.ru*